*K.Bağırova. Azər Buzovnalı yaradıcılığında vətənpərvərlik motivləri // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.91-96.*

**Könül Bağırova**
*filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.*
*Bakı ş. İstiqlaliyyət küç.26*
*e-mail: bagirova.konul@yahoo.com*

# AZƏR BUZOVNALI YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİ

*Klassik şeir ənənələrini yaradıcılığında əks etdirməklə yanaşı dövrünün ədəbi-ictimai tələblərinə uyğun əsərlər yaradan Azər Buzovnalı XX əsrin birinci yarısında yazıb yaradan şairlərdəndir. Ədəbi aləmdə nüfuza malik olan şair təəssüf ki, yaşadığı dönəmdə əsərlərini dövrü mətbuatda az dərc etdirmişdir. Senzuranın və proletar ədəbi mühitin qara siyahısına düşən şairin ədəbi yaradıcılığının müəyyən hissəsini vətənpərvərlik mövzusunda yazdığı şeirlər tutur. Azər Buzovnalının gözəlliyi, ülvi məhəbbəti, nəcib insani keyfiyyətləri aşılayan şeirləri, tarixi mövzulu əsərləri, ədəbiyyatşünaslıq və ədəbi-tənqidi fikirlərini əks etdirən məqalələri, ictimai, alleqorik məzmunlu hekayələri ilə yanaşı vətənpərvərlik motivli nümunələri də yetərincədir. Şairin yaradıcılığında vətənpərvərlik ideyaları bir çox müasirlərindən fərqli olaraq, xüsusi yer tutur. Ömrünün müəyyən hissəsini qürbətdə keçirən ədibin vətən həsrəti, torpaq yanğısı onun yaradıcı fəaliyyətində özünü aydın büruzə edir.*

***Açar sözlər:*** *Azər Buzovnalı, Azərbaycan, şair, vətənpərvərlik.*

## Giriş

*Doğma yurdu Azərbaycana, eləcə də böyüyüb boya başa çatdığı Buzovna kəndinə məhəbbət, xalqına, millətinə dərin sevgi, tarixinə bağlılıq Azər Buzovnalının lirikasında vətənpərvərlik motivlərinin əsasını təşkil edir. Şair vətənini azad, vətəndaşlarını xoşbəxt görmək üçün əlbəttə ki, insanların vətən uğrunda mücadilələrinə, yağı düşməndən intiqam almalarına əsas verir, ideyalarını gənc nəslə çatdırmağa çalışır. Azər Buzovnalının əsərlərində əks olunan vətənpərvərlik, yurdsevərlik hissləri milli düşüncəsindən və milli kimliyindən qaynaqlanan ideyalardır. Müqəddəs olan bu sevginin həm bir vətəndaş, həm də yurduna, elinə dərin tellərlə bağlı olan şair tərəfindən təbliği oxucuda qürur hissi doğurur.*

Azərbaycan xalqı üçün siyasi və mədəni müstəvidən yeni başlanğıc hesab edilən XX yüzillik həm ziddiyyətli, həm də müxtəlif proseslərin cərəyanı baxımından rəngarəng idi. "XIX əsrin birinci yarısında Azərbaycanda baş verən siyasi sarsıntılar, inzibati bölgülər, əsrin II yarısında kapitalizmin inkişafı, istehsal münasibətlərinin dəyişilməsi, iqtisadiyyat və mədəniyyət sahəsində həyata keçirilən islahatlar geniş xalq kütləsinin ictimai şüurunun inkişafına ciddi təsir göstərirdi" (1, s. 104). Belə bir dövrdə yazıb yaratmış bir çox sənətkarların şəxsiyyəti, həyatı, yaradıcılıq fəaliyyəti tədqiqatçılar üçün həm çətin, həm də maraqlı və aktualdır. Yeni quruluşu qəbul edərək, klassik dövrün başlıca xüsusiyyətlərindən imtina etməyən bir çox şair və yazıçıların ədəbi yaradıcılıq yolu müəyyən məqamlarda böyük maneələrlə rastlaşır, qarşılarında səd kimi duran qara qüvvələr onların ictimai fəaliyyətlərini nəzarət altında saxlamağa çalışırdılar. Sənətkarların bədii sənət nümunələri müxtəlif qəzet və jurnallarda qismən və ya tam şəkildə çap olunsa da, əsərlərinin külliyyatlarının nəşrinə ya

icazə verilmir, ya da seçilib araşdırılandan sonra dərc edilirdi. Məhz bu səbəbdən də hər hansı bir dövrün ədəbi simasını, mənzərəsini araşdırmaq, "ədəbi inkişaf istiqamətlərini öyrənmək üçün, hər şeydən əvvəl, dövrün ədəbi prosesinin tendensiya və meylləri, ədəbi hadisələr və onun xarakteri öyrənilməlidir" (2, s.8) deyərkən tədqiqatçı Bədirxan Əhmədov şair və yazıçıların həyat və fəaliyyətinin cəmiyyət həyatından uzaq olmadığı fikrini vurğulamışdır.

Klassik şeir ənənələrini yaradıcılığında əks etdirməklə yanaşı dövrünün ədəbi-ictimai tələblərinə uyğun əsərlər yaradan Azər Buzovnalı XX əsrin birinci yarısında ədəbi fəaliyyətlə məşğul olaraq, müxtəlif səpkili yaradıcılıq nümunələri qələmə alsa da, dövri mətbuat istisna olmaqla, yaradıcılıq nümunələrini nəşr etdirə bilməmişdir. Şair özü yazdığı kimi:

Zəhmət çəkib yar etdim qiymətli çox əsərlər,
Heyfa ki, intişarə olmadı ixtiyarım (3).

Senzuranın və proletar ədəbi mühitin qara siyahısına düşən şairin ədəbi yaradıcılığının müəyyən hissəsini vətənpərvərlik mövzusunda yazdığı şeirlər tutur. Şairin gözəlliyi, ülvi məhəbbəti, nəcib insani keyfiyyətləri aşılayan şeirləri, tarixi mövzulu əsərləri, ədəbiyyatşünaslıq və ədəbi-tənqidi fikirlərini əks etdirən məqalələri, ictimai, alleqorik məzmunlu hekayələri ilə yanaşı vətənpərvərlik motivli yaradıcılıq nümunələri də yetərincədir. Sənətkarın mövzu və ideya baxımından rəngarəng poetik irsinin müəyyən hissəsini təşkil edən vətən sevgisi, torpağa bağlılıq hissləri ilə qələmə alınmış bu qəbildən şeirləri yeniyetmə və gənclərə aşılamaq istədiyi sənət nümunələridir:

Vətən övladına anadır vətən,
Kim qoyar anasın tapdasın düşmən.
Vətən əhalinin cismində candır,
Gizlin deyildir bu, gün tək əyandır (4).

Azərbaycan ədəbiyyatında vətənpərvərlik motivləri, doğma yurda bağlılıq, məhəbbət hissi geniş əksini tapmışdır. Azər Buzovnalı yaradıcılığında da bu mövzu ön plandadır. Şairin yaradıcılığında vətənpərvərlik ideyaları bir çox müasirlərindən fərqli olaraq, xüsusi yer tutur. Ömrünün müəyyən hissəsini qürbətdə keçirən şairin vətən həsrəti, torpaq yanğısı onun yaradıcı fəaliyyətində özünü aydın büruzə edir.

Keçməmişdi hələ yeddidən yaşım,
Qürbət ölkələrə atıldı daşım.

Bu süfrədə mənim yarım, yoldaşım,
Atam, anam idi, iki qardaşım.

Ayırdı ehtiyac darü dünyadan,
Cüda qıldı fələk yoldaşdan, yardan.

Qəza çəkdi bizi hardan haraya,
Buzovna kəndindən İnci qalaya (3).

Doğma yurdu Azərbaycana, eləcə də böyüyüb boya başa çatdığı Buzovna kəndinə məhəbbət, xalqına, millətinə dərin sevgi, tarixinə bağlılıq Azər Buzovnalının lirikasında vətənpərvərlik motivlərinin əsasını təşkil edir. Şairin qəlbində yer alan vətən məhəbbəti onu dünya gözəlliklərindən belə uzaqlaşdırır, cənnətin gözəlliklərini doğma yurdu Bakının görünüşü ilə müqayisə edir, vətənini axirətin behiştindən daha uca tutur:

Ey tikən cənnətə göz, meyl eyləyən minuyə,
Bircə təşrif götür eylə nəzər Bakuyə.
Görən adam bu yeri cənnəti salmaz yada,
Huru qılman görür əlbəttə, baxa hər suyə (5, s.188).

Şeirin hər misrasında şairin vətənə bağlılığı, Azərbaycanın döyünən ürəyi olan Bakını necə sevdiyini, onun gözəlliyi ilə necə qürurlandığını aydın görmək olar.

Şəhrimiz rəngi-Xətavü Xitən olmuş əlhəqq,
Bənzəyir hər gözəli ahuyi-mişkinmuyə (5, s.188).

Vətənpərvərlik, yurdpərəstlik şairin ictimaiyyətə sevə-sevə təbliğ etdiyi ideyalardır. Müqəddəs olan bu sevginin həm bir vətəndaş, həm də yurduna, elinə dərin tellərlə bağlı olan şair tərəfindən təbliği oxucuda qürur hissi doğurur.

Azər Buzovnalı doğma yurdun gözəllərinin tərifini də yaddan çıxarmır. Qanı bir, dili bir, dini bir gözəllərin doğma vətənə xüsusi yaraşıq verdiyini tərif edir. Şair vətənpərvərlik ideyalarını qəzəllərində özünəxas istedad və bacarıqla ifadə edir, qəzəllərinin birində halını bülbülə müraciət edərək bəyan edir, şeirin son beytində vətənini belə tərif edir:

Gətirmə xəlqi təngə ahü fəqanından, ey bülbül,
Əgər canan sevirsən, keçginən canından, ey bülbül.

Məkanın Azəri gülzarıdır çün Azəri şad et,
Danış hər ləhzə şanlı Azəristanından, ey bülbül (5, s.199).

Azər əsərlərində doğulub boya başa çatdığı Buzovna kəndini də unutmur:

Kəndim ki Buzovna kuydur, müxlisim Azər,
Məşhuri-cəhan xitteyi Bakı şəhərimdir (5, s.204).

Və yaxud:

Azərbaycanlıyam deyiləm Noğay,
Buzovna elindən məskənim Toğay (6).

Məlum olduğu kimi, şair pedaqoji fəaliyyətini təkmilləşdirmək, təhsilini davam etdirmək məqsədilə bir müddət Dağıstanda yaşamışdır. O vətəndən uzaqda keçirdiyi günlərini xüsusi bir nisgil, qəlb yanğısı ilə şeirlərində xatırlamışdır:

Dövri-fələk edib vətənimdən cüda məni,
Yüz dərdi-möhnətə elədi mübtəla məni (7, s.162).

Şair vətənində yaşadığı adi günləri qürbətin hər cür eyşindən, sevincindən üstün tutaraq deyir:

Beş gün vətən həyatını çox gördümü məgər,
Atdı diyari-qürbətə zalım qəza məni.

Ölkəmdən ülfətim kəsib eylədi əlayiqim,
Biganələrlə etdi fələk aşina məni.

Məsrur eyləməz məni qürbətdə bəzmi-eyş,
Bu zövqə görməyirmi təbiət səza məni. (7, s.162)

Məşədi Azərin əsərlərində Bakıya xüsusi məhəbbət, onun gözəlliklərindən ürək dolusu ilə bəhs edilməsi, xüsusi olaraq vurğulanmaqdadır.

Şəkini, Şirvanı, Gürcüstanı gəzmə Bakıda,
Şahilər şahı, gözəllikdə şəhənşahıma bax! (8, s.198)

Azər Buzovnalı dövrün ədalətsiz hadisələrini, müəyyən dairələrin sadə xalq ilə fikir ayrılıqlarını, hərc-mərcliyi yaxşı müşahidə edib, fikirlərini, narazılıqlarını əsərlərində bildirsə də, yurdunun şəxsiyyətlər yetişdirib, keçmişə gələcəyinə dəyər verən bir torpağın vətəndaşı olduğunu da unutmur, fərəh dolu hisslərini qələmə alır:

Abad olsun Azərbaycan ölkəsi,
Əhrar (svobodnıy, blaqorodnıy) bəslər, bəsləməz hər nakəsi (3).

Şair vətənini azad, vətəndaşlarını xoşbəxt görmək üçün əlbəttə ki, insanların vətən uğrunda mücadilələrinə, yağı düşməndən intiqam almalarına əsas verir, ideyalarını gənc nəslə çatdırmağa çalışır. "Əhmədlə Mahmud", "Aydəmir" adlı mənzum hekayələrində şairin vətənpərvərlik ideyaları daha qabarıq nəzərə çatır.

Silib təmizləyək ölkədən yadı,
Bəlkə xilas olsun vətən övladı.
Ölkəmiz olmuşdur yağı tapdağı,
Daha gəlib çatmış intiqam çağı (9)

Vətən uğrunda verən can əbədi zində ola,
Nəxli-amalını haşa görə birdən xali (8, s.182)

**Nəticə**

*Ana yurdumuz, tariximiz, ənənələrimiz bir sözlə mənəviyyatımız olan Vətən məhfumu hər zaman tarixin ən parlaq səhifələrini təşkil etmişdir. Vətən anlayışının müqəddəsliyi şair və yazıçıların yaradıcılığında öndə durmuşdur. Azər Buzovnalı yaradıcılığında da vətənpərvərlik, beynəlmiləlçilik motivləri başlıca rol oynamış, doğma elə, obaya məhəbbət möhkəm sütunlar üzərində qurulmuşdur. Şairin əsərlərində əks olunan vətənpərvərlik hissləri sənətkarın milli düşüncəsindən və milli kimliyindən qaynaqlanan ideyalardır.*

**Ədəbiyyat siyahısı:**

1. Xeyrulla Məmmədov. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: 2006, 212 s.
2. Əhmədov B.B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. (Dərslik). 3 clddə. I cild. Bakı: Elm və təhsil, 2011, 480 s.
3. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Fond 12, sax. vah. 4
4. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Б-1710/3335
5. Buzovnalı A. Seçilmiş əsərləri. Tərtibçilər: A. Ramazanov, K. Bağırova. Bakı: Nurlan, 2007, 236 s.
6. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Б-1217/2840

7. Buzovnalı A. Əsərləri. Tərtibçi: K. Bağırova. Bakı: Elm və təhsil, 2012, 324 s.
8. Məşədi Azər. Seçilmiş əsərləri. Tərtibçi: R. Azərsoylu-İmaməliyev. Bakı: Boz oğuz-Nicat, 1996, 279 s.
9. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Buzovnalı A. Б-1711/3336

**Кёнуль Багирова**

**Патриотические мотивы в творчестве Азера Бузовналы**

Наряду с отражением традиций классической поэзии в своих произведениях, а также созидая свои произведения в соответствии с литературно-социальными требованиями своей эпохи, Азер Бузовналы занимался литературным творчеством в первой половине XX века. Поэт, имеющий репутацию в литературных кругах, к сожалению, был одним из поэтов, мало опубликованных в периодической печати в свое время. Некоторая часть литературного творчества поэта, попавшего в черный список цензуры и пролетарской литературной среды, содержат стихи, которые он написал на патриотические темы.

В творчестве Азера Бузовналы, наряду со стихами, внушающими красоту, высшую любовь, благородные человеческие качества, его произведениями на исторические темы, статьями, отражающие литературоведческие мысли и литературную критику, а также общественные и аллегорические рассказами, достаточно образцов с патриотическими мотивами. В отличие от современных писателю поэтов, в творчестве поэта идеи патриотизма отражаются в историческом плане. В творчестве писателя, который провел некоторую часть своей жизни за рубежом, тоска по Родине, жажда по земле проявляет себя.

Любовь к Азербайджану, а также к родной земле – к деревне Бузовна, где родился и вырос поэт, безграничная любовь к народу, привязанность к историческому прошлому своего земли и народа составляет главные мотивы патриотической лирики Азера Бузовналы. Поэт хочет увидеть свою страну свободной и в своем творчестве он выражает свои мечты, идеалы и борьбу за родину и призывает молодое поколение к борьбе, к верности и служению своей стране.

Идеи патриотизма, чувства отчизнолюбия, отраженные в произведениях Азера исходят из его национального мышления и национальной идентичности. Проявление этих священных чувств поэтом является источником гордости для читателя.

***Ключевые слова:*** *Азер Бузовнали, Азербайджан, поэт, патриотизм.*

**Konul Baghirova**

**The patriotic motives in Azer Buzovnali's work**

Reflecting the classical poetry traditions in his works Azer Buzovnali created works that suits literary-social requirements of the period, was engaged in literary activity in the first half of the 20th century. Having an influence in the literary work Azer Buzovnali is one of the few poets ever published in the press during the creative period. The poet's literary creativity who was included into the black list of censorship and Soviet literary environment contains some of the poems which were written about patriotism. The writer's sense of longing for homeland, who has spent some part of his life abroad, is clearly manifested in his literary creativity. Unlike most of his contemporaries, the ideas of patriotism in his poetry are reflected in the historical plan.

Love to motherland Azerbaijan, as well as to Buzovna village where he grew up, a deep affection to his nation, attachment to historical past are the main motives of patriotic lyricism of Azer Buzovnali. The poet wants to see his homeland independent, compatriots happy and calls the younger generation to struggle for the homeland, to be loyal and to service.

Falling to the black list of censorship and proletarian literary environments the part of poet's creativity contains poems concerning the patriotism. Instilling the poet's beauty, his love for his soul, noble human qualities, articles on history, literary criticism, literary and critical views, public and allegorical stories are enough along with his patriotic motifs. The patriotism is reflected in Azar's works, it reflects the poet's national idea and national identity.

***Key worlds:*** *Azer Buzovnali, Azerbaijan, poet, patriotism.*

Redaksiyaya daxil olma tarixi: 09.08.2019
Çapa qəbul olunma tarixi: 14.09.2019

Filologiya üzrə elmlər doktoru
**Nailə Səmədova** tərəfindən çapa tövsiyə olunmuşdur.